## ФОРТЕПИАННОЕ ТВОРЧЕСТВО Д.ШОСТАКОВИЧА И ИСПОЛЬЗОВАНИЕ ЕГО МУЗЫКАЛЬНОМ ВОСПИТАНИИ ШКОЛЬНИКОВ ПУТИ, ВОЗМОЖНОСТИ

***Магеррамова Гюльтакин Сабир кызы***

***Резюме***

Статья посвяшена фортепианному творчеству выдающегося композитора, педагога, пианиста Д.Шостаковича, проанализированы пути и возможности использование его фортепианного творчества в музыкальном воспитании школьников.

Д. Шостакович опираясь на лучшие традиции национальной и мировой музыкальной культуры создал ценные произведения исскуства.

Использование фортепианной произведений композитора на уроках «Музыки» в общеобразовательных школах, положительно влияет на музыкальное воспитание школьников и повышает их музыкальную культуру.

## DMITRI SHOSTAKOVICH'S FORTEPIANO CREATIVITY, THE OPPORTUNITIES AND WAYS OF ITS USAGE IN STUDENTS' MUSICAL EDUCATION

***Meherremova Gultekin Sabir***

***Summary***

The article is dedicated to the piano work of the prominent Russian composer, pedagogue, pianist and public figure D.Shostakovich and the study of the possibilities and ways of its use in the musical education of schoolchildren. Shostakovich has created valuable works of art in various genres based on the best traditions of both his people and world music culture.

The widespread use of the composer's piano music in the musical education of schoolchildren has a positive effect on the musical education of schoolchildren, enhances the musical culture.

***Rəyçi: Məhərrəmova Səma***
***Musiqi kafedrasının 26 oktyabr 2021-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olma tarixi 10 noyabr 2021-ci il***

**UOT:781.**

## FİKRƏT ƏMİROVUN YARADICILIĞINDA XALQ TƏFƏKKÜRÜ ƏNƏNƏLƏRİ

***Məhərrəmova Səma Bəşir qızı***
***Gəncə Dövlət Universiteti***
Semameherremova74@mail.ru

**Xülasə:** *Görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirov operanın, baletlərin, simfoniyaların, simfonik poemaların, simfonik muğamların, süitaların, kapriççionun, fortepiano üçün konsertlərin, pyeslərin, sonatanın, musiqili komediyaların, mahnı və romansların, dram tamaşalarına və kinofilmlərə musiqinin müəllifidir.*

*Janr rəngarəngliyinə baxmayaraq bəstəkarın yaradıcılıq irsində simfonik və musqi-səhnə əsərləri aparıcı yer tutur.*

*Milli təfəkkürə, milli musiqi ənənələrinə, milli zəminə sıx bağlılıq bəstəkarın yaradıcılıq üslubunun əsas cəhətlərindəndir.*

**Açar sözlər:** bəstəkar, yaradıcılıq, xalq, janr, mədəniyyət, ənənə
**Ключевые слова:** композитор, творчество, народ, жанр, культура, традиция

**Key words:** composer, creativity, nation, genre, culture, tradition

XX əsrin görkəmli bəstəkarı, Azərbaycan musiqi sənətinin aparıcı simalarından biri Fikrət Əmirov dünya musiqi mədəniyyəti xəzinəsinə qiymətli töhfələr vermiş məşhur sənətkardır. Bəstəkarın yaradıcılığı ölkəmizdə və onun hüdudlarından uzaqlarda geniş tanınmışdır.

F.Əmirovun musiqisinin böyük şöhrət qazanması, dinləyicilər tərəfindən rəğbətlə qarşılanmasının əsas səbəblərindən biri də dərin milli zəminə söykənməsidir.

Bəstəkarın musiqisi Niyazi (Azərbaycan), Nikolay Anosov, Gennadi Rojdestvenski, Yevgeni Svetlanov (Rusiya), Leopold Stokovski (ABŞ), Şarl Münş (Fransa), German Abendrot (Almaniya) kimi dünya şöhrətli musiqiçilərin dirijorluğu ilə "Karneqi Holl" (Nyu-York), "Royal Festival Holl" (London) və başqa məşhur konsert salonlarında səslənmişdir.

Milli musiqi mədəniyyətinin ilkin mənbələrinə yaxınlıq və xalq musiqisinin qanunauyğunluqlarının klassik formalar ilə üzvi sintezi Fikrət Əmirovu Azərbaycan peşəkar bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin ənənələrinin bilavasitə davamçısı kimi səciyyələndirməyə imkan verir.

"Biz hamımız Üzeyir məktəbindən çıxmışıq" söyləyən bəstəkar dahi müəlliminin yolunu sədaqətlə davam etdirmişdir [2, s.143].

Fikrət Əmirovun yaradıcılıq irsi, demək olar ki, professional musiqinin bütün janrlarını əhatə edir. Bəstəkarın müxtəlif janrlarda yaratdığı əsərlər musiqi mədəniyyətimizdə yeni yollar açmış qiymətli sənət inciləridir. F.Əmirov operanın, baletlərin, simfoniyaların, simfonik poemaların, simfonik muğamların, süitaların, kapriççionun, fortepiano üçün konsertlərin, pyeslərin, sonatanın, musiqili komediyaların, mahnıların, romansların, dram tamaşalarına və kinofilmlərə yazılmış musiqinin və s. müəllifidir.

Xalqın musiqi dilini, musiqi təfəkkürünü dəqiqliklə, dərindən dərk edən bəstəkar, onları öz üslubunun, musiqi dilinin elementlərinə çevirmiş, milli köklər üzərində orijinal əbədiyaşar əsərlər yaratmışdır.

Janrından asılı olmayaraq bəstəkarın əsərlərində lirikanın böyük rolu və bununla bağlı melodiyanın üstünlüyü, folklor-janr mənbələrinin əsərlərin obrazlı-intonasiya və emosional quruluşunda özünü göstərməsi, klassik lad funksional sistemlə milli lad-məqam sisteminin uzlaşdırılması və bu sintezdə milli məqamların üstünlüyü, harmonik dilin rəngarəngliyi, orkestrin zəngin çalarıarı və s. bu kimi xüsusiyətlər bəstəkarın fərdi dəst-xəttinin əsas cəhətlərindəndir.

Bəstəkarın yaradıcılıq üslubunun fərdiliyinin vacib tərkib hissəsini onun musiqi dilinin milli səciyyəsi təşkil edir. Bəstəkarın yaradıcılığı özünəməxsus milli ahəngliyi ilə seçilir. Onun yaradıcılığında xalq musiqisinin rolu, xalq musiqisindən gələn inkişaf prinsipləri əsərlərinin məqam-intonasiya xüsusiyyətlərində, quruluş prinsiplərində özünü qabarıq büruzə verir.

F.Əmirovun yaradıcılığında milli simfonizmin yeni qolları meydana gəlmişdir. Bəstəkar simfonik muğam janrının yaradıcısıdır. Bəstəkarın "Şur", "Kürd-Ovşarı", "Gülüstan–Bayatı-Şiraz" simfonik muğamları dünya musiqi mədəniyyətini zənginləşdirən dəyərli sənət nümunələridir. Azərbaycan xalq musiqi təfəkkürü (muğam) ilə Avropa klassik musiqisinin (simfoniyanın) uğurlu sintezi olan simfonik muğamlar Azərbaycan milli simfonizmini dünya incəsənətinin meydanına çıxartmışdır.

Muğam anlayışı, muğam məfhumu Fikrət Əmirov üçün hər zaman böyük əhəmiyyət kəsb etmişdir. Muğam onun üçün Şərqin fəlsəfəsi, kökləri, əsrlərin dərinliklərindən gələn musiqi və poeziya ensiklopediyası, milli təfəkkür sistemi idi. Azərbaycan muğam sənətini və Avropa simfonizmini birləşdirən bəstəkarın simfonik muğamlarında artıq oriental şəkildə, yəni zahiri bənzətmək yolu ilə deyil, bu iki təfəkkür sisteminin inteqrasiyası nəticəsində olaraq yeni dəyərli janrın yaranmasının şahidi oluruq.

F.Əmirov Azərbaycan musiqi tarixinə simfonik muğam janrı ilə yanaşı, muğamla bağlı daha bir janrın – muğam-poema janrının yaradıcısı kimi də daxil olmuşdur. Onun dahi Azərbaycan şairi və mütəfəkkri Nizami Gəncəvinin xatirəsinə yazdığı "Simfonik poema" və Böyük Vətən müharibəsi qəhrəmanlarının xatirəsinə yazdığı "Simfonik poema" milli musiqi sənətində bu janrın ilk nümunələridir. Bu əsərlərdə xalq musiqi yaradıcılığı bəstəkar tərəfindən üzvi surətdə klassik formalara tətbiq edilərək, xalq və klassik musiqi qanunauyğunluqlarının sintezi böyük professionallıqla həyata keçirilmişdir.

Xalq musiqisinə daim istinad edən, onu müxtəlif forma və janrlarda təcəssüm etdirən bəstəkarın milli təfəkkürü "Azərbaycan" simfonik süitası, simfonik orkestr üçün "Azərbaycan qravürləri","Azərbaycan" kapriççiosunda parlaq ifadəsini tapmışdır.

Bəstəkarın görkəmli Azərbaycan dramaturqu C.Cabbarlının eyniadlı pyesi əsasında yazdığı, Azərbaycan musiqi mədəniyyətində müasir mövzuda ilk milli lirik-psixoloji opera olan "Sevil" operası haqqında Xalq şairi Səməd Vurğun haqlı olaraq demişdir: "...Azərbaycan xalq musiqisinə yaxşı bələd olan Fikrət Əmirovun müvəffəqiyyəti çox böyükdür. "Sevil" operası müəllifin tükənməz xalq muğamlarımızın xəzinəsindən aldığı və məharətlə istifadə etdiyi cazibəli melodiyalarla zəngindir. Xalq musiqisi opera üçün çox zəngin musiqi materialı olmuşdur" [5, s.24].

Xalq musiqisinə istinad etməyin zəruriliyini daim vurğulayan bəstəkarın musiqisində xalq musiqisi ilə yaxınlıq yalnız intonasiya oxşarlığında deyil, həm də musiqi dilində, melodiyanın inkişaf xüsusiyyətlərində, forma quruculuğunda və s. cəhətlərində özünü göstərir. O, "xalq kimi" düşünür. Xalq təfəkkürü, xalq dilinin üslubu, xalq obrazlar sistemi, ümumilikdə xalq ruhunun təcəssümü üçün bəstəkarın yeni forma və ifadə vasitələrini axtarması onu novator bəstəkar kimi səciyyələndirir.

Bəstəkar öz xalqının mənəvi mədəniyyətindən, xalq sənətinin tükənməz xəzinəsindən bəhrələnərək xalq yaradıcılığına daim xüsusi diqətlə yanaşmağı tövsiyə edirdi. Bəstəkar musiqi mədəniyyətinin təkamül yolunu professional bəstəkar yaradıcılığının xalq musiqisi ilə qarşılıqlı əlaqəsində, Azərbaycan peşəkar bəstəkarlıq məktəbinin ən yaxşı ənənələrinin qorunması və inkişafında görürdü.

İlk yaradıcılıq addımlarından başlayaraq xalq musiqi mənbələrindən bəhrələnən bəstəkar özünün məqalə və çıxışlarında xalq yaradıcılığının rolunu yüksək qiymətləndirir, bəstəkar yaradıcılığının xalq yaradıcılığı ilə əlaqədə inkişafının əhəmiyyətini ön plana çəkirdi. F.Əmirov yazır: "Musiqi folklorumuzu toplamaq, nəşr etdirmək, onlardakı sadəliyi, güclü emosiyanın sirlərini öyrənmək böyüklü-kiçikli hamımızın əsas vəzifəmiz olmalıdır. ... Əsl novatorluğu xalqın həyatından, canlı ənənələrindən, milli zəmindən ayrı təsəvvür etmək mümkün deyildir" [2, s.47,48].

F.Əmirov xalqın musiqi dilini, musiqi təfəkkürünü elə dərinliklə dərk edir ki, onlar bəstəkarın öz üslubunun, musiqi dilinin elementlərinə çevrilir. Azərbaycan xalq musiqisi F.Əmirovun öz fikir və hisslərini ifadə etməsi üçün doğma dildir. Məhz buna görə onun əsərləri milli ruhu, milli koloriti ilə seçilir.

F.Əmirovun xalq yaradıcılığı, musiqi folkloru və bəstəkar yaradıcılığının əlaqələri haqqında mülahizələri, xalq musiqisinin bədi-estetik xüsusiyyətlərinin, lad-intonasiya və struktur quruluşu qanunauyğunluqlarının, metro-ritm, tembr və s. səciyyəvi cəhətlərinin bəstəkarın əsərlərində özünəməxsus təzahürü onun milli təfəkkürünün aydın ifadəsidir.

Beləliklə, musiqidə millilik yalnız musiqi folkloruna istinad deyil. Musiqidə millilik ilk əvvəl məhz milli təfəkkür tərzidir. F.Əmirovun yaradıcılığı milli təfəkkür normaları ilə Avropa musiqi formalarının üzvi qovuşması ilə səciyyələnir.

***Ədəbiyyat***

Abdullayeva Z. Azərbaycan musiqi ədəbiyyatı. II hissə. Bakı, 2009, 245 s.
Əmirov F. Musiqi aləmində. Bakı, 1983, 272 s.
Əmirov F. Musiqi səhifələri. Bakı, 1978, 145 s.

Qasımova S., Abdullayeva Z. "Fikrət Əmirov". Bakı, 2004, 210 s.
Zöhrabov R. "Bəstəkarlarımız haqqında söz". Bakı, 1995, 90 s.
**Saytoqrafiya**
"Harmony" musiqi kulturuloji beynəlxalq elektron jurnal. http://harmony.musigi-dunya.az
Musiqi dünyası" elektron jurnalı. http://www.musigi-dunya.az

## ТРАДИЦИИ НАРОДНОГО МЫШЛЕНИЯ В ТВОРЧЕСТВЕ ФИКРЕТА АМИРОВА

***Магеррамова Сяма Башир кызы***

***Резюме***

Выдающийся азербайджанский композитор Фикрет Амиров – автор оперы, балетов, симфоний, симфонических поэм, симфонических мугамов, сюит, каприччио, фортепианных концертов, фортепианных пьес, сонат, музыкальных комедий, песен, романсов, музыки к драматическим спектаклям, кино и т.д.
При широком жанровом разнообразии, два жанра – симфонический и музыкально-сценический занимают ведущие место в творческом наследии композитора.
Национально-ладовое мышление, опора на национально-почвенные традиции, определяют особенность творческого стиля композитора.

## TRADITIONS OF PEOPLE THINKING IN THE CREATIVITY OF FIKRET AMIROV

***Maharramova Sama Bashir***

***Summary***

The prominent Azerbaijani composer Fikret Amirov is the author of operas, ballets, symphonies, symphonic poems, symphonic mugams, suites, capriccio, piano concerts, plays, sonatas, musical comedies, songs and novels, music for dramas and movies.

In spite of the diversity of genres, symphonic and musical-stage works occupy a leading place in the composer's creative heritage.

Close connection to national thinking, national musical traditions, national background is one of the foundations of the composer's creative style.

***Rəyçi: Şabanova Sevil***
***Musiqi kafedrasının 26 oktyabr 2021-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olduğu tarixi 10 noyabr 2021-ci il***

**UOT:784.**

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN BEŞİNCİ SİNİFLƏRİNDƏ AZƏRBAYCAN MUĞAMLARINDAN İSTİFADƏ ETMƏKLƏ ŞAGİRDLƏRİN MUSİQİ TƏRBİYƏSİNİN İNKİŞAFI ÜZRƏ İŞİN ÜSULLARI

***Məmmədova Qəsirə Tofiq qızı***
***Gəncə Dövlət Universiteti***
***qasira.mammedova@gmail.com***

**Xülasə**: *Klassik Azərbaycan muğamları öz dərin fəlsəfi məzmunu, insanlara göstərdiyi emosional təsir qüvvəsinə görə digər xalqlarin musiqi nümunələrindən köklü surətdə fərqlənir. Təsadüfi deyildir ki, Azərbaycanın xalqının böyük dəyərlərindən olan muğam 2008-ci ildə YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin inciləri siyahısına daxil edilmişdir.*